**K.F.MAHMUDOVA**
*pedaqogika üzrə fəlsəfə doktoru,dosent*
*e-mail: konul-mahmudova@mail.ru*
**:https://orcid.org/0000-0001-7042-9257**

**M.S.AĞAYEVA**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

**10.62021/0026-0028.2024.4.288**

# BİOLOGİYADAN EKSKURSİYALARIN TƏŞKİLİ İLƏ EKOLOJİ BİLİK VƏ BACARIQLARIN AŞILANMASI

***Xülasə.*** *Məqalədə ümumtəhsil məktəblərində biologiya fənninin tədrisində ekskursiyaların təşkilində şagirdlərə aşılanan bilik və bacarıqlardan bəhs edilir. Göstərilir ki, ekskursiyalar təlimin köməkçi formaları olub, orada şagirdlərə dərslərdə aşılanan bilik və bacarıqlar daha da genişləndirilir, dərinləşdirilir. Sinifdənkənar məşğələlərin əhəmiyyəti, əsas vəzifələri, prinsipləri izah edilir. Şagirdlərin cəmiyyət üçün hərtərəfli inkişafında sinifdənkənar məşğələlərin xüsusi rolu göstərilir. Sinifdənkənar məşğələlərdən tədrisdə daha çox tətbiq olunan ekskursiya məşğələsindən bir nümunə verilir. Məqalədə biologiyadan sinifdənkənar məşğələlərin keçirilməsinə dair verilən metodik məsləhətlər müəllimlərə bu sahədə kömək edə bilər.*

***Açar sözlər:*** *təlim, dərs, sinifdənkənar məşğələ, pedaqogika, ekskursiya, təbiət, tarix, muzey*

Müəllimin rəhbərliyi altında, məktəbdə eyni yaşlı şagird kollektivi ilə, dövlət proqramına uyğun, sabit cədvəl əsasında keçirilən kollektiv məşğələ təlimin əsas təşkil forması dərsdir. Dərs təlimin çevik forması olub, orada müxtəlif təlim metodları, üsul və tərzləri tətbiq olunur. Dərs müəllimlə şagirdlərin birgə fəaliyyəti olub, uşaq kollektivinin yaranmasına və ünsiyyət tapmasına kömək edir. Dərs, həmçinin şəxsiyyətin qiymətli dərketmə xassələrini: fəallıq, müstəqillik, bilik və bacarıqlar əldə etməsi kimi keyfiyyətlərini formalaşdırır. Hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşmasında dərslə yanaşı, təlimin sinifdənkənar və məktəbdənkənar iş formalarının da tətbiqi əsas məsələlərindəndir [1, s.23].

Şagirdlərin asudə vaxtlarının səmərəli təşkil edilməsi sinifdənkənar məşğələlərin yüksək səviyyədə təşkilini tələb edir. Təlimin sinifdənkənar iş formaları dərslərdə öyrənilən bilik və bacarıqları möhkəmləndirir, şagirdin fərdi meyil və qabiliyyətlərini inkişaf etdirir. Sinifdənkənar məşğələlər müəllimlər tərəfindən dərsdən sonra şagirdlərlə aparılan təlim-tərbiyə fəaliyyətləridir. Belə məşğələlər təlim-tərbiyə prosesinin fasiləsizliyini və ardıcıllığını təmin edir. Deməli, sinifdənkənar işlərdə əsas məqsəd şagirdlərin müxtəlif bilik sahələrinə və fəaliyyət növlərinə olan marağını, qabiliyyət və istedadlarını inkişaf etdirməkdən, asudə vaxtlarının səmərəli təşkilindən və peşəseçmə işinə kömək göstərməkdən ibarətdir [1, s.116].

Sinifdənkənar məşğələlər müxtəlif formalarda təşkil olunur. Formalarına görə onların aşağıdakı sxem üzrə ümumiləşdirilməsi məsləhətdir.

Məktəblərimizdə mövzusuna görə təbiət, istehsalat, tarix və incəsənət ekskursiyaları təşkil edilir. Müxtəlif təbiət guşələrinə təşkil olunan ekskursiya məşğələlərinə biologiyanın tədrisində daha çox yer verilir. Təbiət ekskursiyası bir neçə fənn üzrə təşkil olunur [3, s. 131].

Biologiyadan Bakı şəhəri, N.Nərimanov rayonu 291 saylı məktəbdə təşkil olunmuş ekskursiya məşğələlərində şagirdlərin əldə etdikləri bilik və bacarıqlara nəzər yetirək.

Bakı şəhəri N.Nərimanov rayonu 291 nömrəli ekologiya liseyində biologiya müəllimi 10 may Beynəlxalq Köçəri Quşlar Günü münasibəti ilə Şirvan Milli Parkına ekskursiya təşkil etdi. Ekskursiyanın məqsədi mövsüm hadisələrinin quşların həyatına təsirini müşahidə etmək, "Quşların miqrasiya səbəbləri" və "Beynəlxalq Köçəri Quşlar Günü" barədə məlumat almaq idi.

Müəllim ekskursiyadan 3 gün əvvəl şagirdləri tərtib etdiyi ekskursiya planı ilə tanış etdi. Şirvan Milli Parkına dair video material izlənildi. Sonra məktəb rəhbərliyi və valideynlər bu barədə məlumatlandırıldı. Şagirdləri ekskursiyanın uğurlu keçməsi üçün vacib davranış qaydaları ilə tanış etdi, onlara quşları qorxutmağı, səs salıb heyvanları narahat etməməyi tapşırdı.

Şagirdləri 2 qrupa ayıraraq, onların birinə "Quşların miqrasiya səbəbləri" digərinə "Beynəlxalq Köçəri Quşlar Günü" mövzusunda təqdimatın hazırlanmasını tapşırdı.




14 may 2014-cü ildə İDEA İctimai Birliyinin "Azərbaycanın 9 möcüzəsi" adlı xüsusi layihəsi çərçivəsində hazırlanan və Şirvan Milli Parkından bəhs edən filmi aşağıdakı linkə (https://youtu.be/xi8g2AhD1Ps) daxil olaraq izlənildi. Filmin izlənməsində məqsəd, şagirdlərin doğma yurdu daha yaxından tanıması, Milli Park barədə məlumatlandırılması və ekskursiyaya dair maraqlarının artırılması idi. Ekskursiya məkanında Milli Parkın rəhbəri parkda gedən işlərlə şagirdləri tanış etdi. Şagirdlər Milli Parkın təbiəti ilə tanış olaraq tapşırılan mövzular üzrə nəticələri təqdim etdilər.

Birinci qrupun şagirdləri "Quşların miqrasiya səbəbləri" mövzusunda çıxış edərək göstərdilər ki, bir çox yırtıcı quşlar bütün il boyu bir yerdə yaşamır. Bəziləri sərt qışdan qorunmaq üçün miqrasiya edir, başqaları isə fəsillərin dəyişməsi ilə əlaqədar bir ov yerindən digərinə köç edir. Məsələn, rasionu həşəratlarla zəngin adi arıyeyən və çöl müşgülü yayda yemin daha bol olduğu şimala uçur. Amma qış yaxınlaşdıqda və həşəratlar azaldıqda cənuba qayıdır. Başqa quşlarla qidalanan bəzi yırtıcılar ovladıqları quşların mövsümi miqrasiyası ilə əlaqədar köç edir. Digərləri, məsələn, şahin-laçının dağdakı yuvadan sahil boyundakı qış məskənlərinə köçü arasında məsafə cəmi bir neçə kilometrdir. Yırtıcı quşlar köç zamanı geniş su hövzələ-

rindən kənar uçur. Məsələ bundadır ki, onlar göydə süzməyə yaxşı uyğunlaşsa da, qanadlarını uzun müddət yelləməyə dözümlü deyillər.

Digər qrup "Beynəlxalq Köçəri Quşlar Günü" mövzusunda çıxış etdilər. Göstərdilər ki, 10 may Beynəlxalq Köçəri Quşlar Günüdür. Bu təqvim 2006-cı ildən beynəlxalq səviyyədə qeyd edilən məlumatlandırma kampaniyası və ekoloji bayramdır. Bir çox ölkələrdə, o cümlədən Kanada və ABŞ-da hər il 10-11 may tarixlərində Beynəlxalq Köçəri Quşlar günü qeyd olunur. Amerikalı ornitoloqlar tərəfindən 1993-cü ildən etibarən bu gün bayram edilir. 1906-cı ildə isə "Köçəri quşlar haqqında beynəlxalq Konvensiya" qəbul olunub. Günün əsas məqsədi dünya ölkələrinin diqqətini qlobal ekoloji problemlərdən biri olan köçəri quşların köçü zamanı onların sərbəstliyini və təhlükəsizliyini təmin etməkdir [10, s. 132].

Çıxışları dinlədikdən sonra quşların köçünün izlənməsi üçün müəllim şagirdləri müşahidə qülləsinə topladı və onları dürbinlə təmin etdi. Şagirdlər quşların köç hadisəsini yaxından müşahidə etməyə nail oldular.

Şagirdlər qeyd etdilər ki, quşların köçünün yaxından izlənməsi çox maraqlı və hər zaman yadda qalacaq bir hadisədir. Ekskursiya sayəsində quşların köç etmə prosesinin əyani şahidi olduq və quşlar barədə maraqlı məlumatlar əldə etdik. Şagirdlər təqdimatlarında və yekun çıxışlarında çəkdikləri maraqlı şəkilləri də təqdim etdilər. Ekskursiyanın yekun mərhələsində aşağıdakı suallarla şagirdlərin ekoloji bilik və bacarıqları yoxlanıldı. Suallar:

1) Şirvan Milli Parkına hansı quşlar köç edir?
2) Şirvan Milli Parkında quşların qidasını nələr təşkil edir?
3) Şirvan Milli Parkının yaradılmasında məqsəd nə idi?
4) Parkda hansı heyvanlar qorunur?
5) Parkın ərazisinin bitkiləri hansılardır?

**Problemin aktuallığı.** Ekskursiyada iştirak edən şagirdlər suallara təmkinli, elmi, doğru cavabları ilə aldıqları ekoloji bilik və bacarıqlarını nümayiş etdirirlər. Bununla da əmin olundu ki, sinifdənkənar məşğələlər, o cümlədən ekskursiyaların şagirdlərin təlim-tərbiyəsində, şəxsiyyət kimi inkişafında mühüm əhəmiyyətə malikdir.

**Problemin elmi yeniliyi.** Ümumtəhsil məktəblərində biologiyadan ekskursiyaların təşkilində şagirdlərə ekoloji bilik və bacarıqların aşılanması sahəsində yeni metodika verilir. Müasir formatda təbiət ekskursiyasına dair nümunə işlənmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti.** Problemin həllində çətinlik çəkən fənn müəllimlərinə metodik tövsiyələr verilir.

**Ədəbiyyat**


1. Hacıyeva, H. Ümumtəhsil məktəblərində səriştəli təlimin əsas istiqamətləri / H.Hacıyeva, M.Zülfüqarova, – Bakı, – 2023, s. 23, s. 111-127.
2. Hacıyeva, H. Ümumtəhsil məktəblərində biologiyanın fəal təlim metodları ilə tədrisi metodikası / H.Hacıyeva, T.Abdullayeva, E.Hacıbəyova. – Bakı, – 2014, – 166-170 s.
3. Hüseynov, Ə.M., Məhərrəmov Ə.M. Biologiyanın tədrisi metodikası / Ə.M.Hüseynov, Ə.M.Məhərrəmov. – Bakı, – 2003.
4. Paşayev, Ə.X., Rüstəmov F.A. Pedaqogika / Ə.X.Paşayev, F.A.Rüstəmov. – Bakı, – 2002.
5. Seyidli, Y. Biologiya 6. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik / Y.Seyidli [və b.], – Bakı, – 2018.
6. Seyidli, Y. və b. Biologiya 7. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik / Y.Seyidli [və b.], – Bakı, – 2018.
7. Hacıyeva, H.M. Ümumtəhsil məktəblərində biologiyanın tədrisində bitkilərə dair tibbi bilik və bacarıqların aşılanması / H.M.Hacıyeva [və b.], – Bakı, – 2015.
8. Kazımov, N.M. Məktəb pedaqogikası / N.M. Kazımov, – Bakı, – 2008.
9. Hacıyeva, G. Biologiyanın tədrisi metodikasından mühazirələr / G.Hacıyeva, – Bakı, – 2016.
10. Qafarova, P. Biologiyanın tədrisi metodikası. Ali məktəblər üçün dərslik / P.Qafarova, – Bakı, – 2024.

**K.F.Makhmudova, M.S.Aghayeva**

**Teaching Environmental Knowledge and Skills to Students by Organizing Biology Excursions**

***Summary***

The article talks about the knowledge and skills imparted to students in the organization of excursions in the teaching of biology in secondary schools. It is shown that the excursions are auxiliary forms of training, and the knowledge and skills imparted to the students in the lessons are further expanded and deepened. The importance, main tasks and principles of extracurricular activities are explained. The special role of extracurricular activities in the comprehensive development of students for society is noted. An example of a field trip is an example of extracurricular activities that are more commonly used in teaching. Methodical advice given in the article on conducting extracurricular activities in biology can help teachers in this area.

***Key words:*** *training, lesson, extracurricular activity, pedagogy, excursion, nature, history, museum*

**К.Ф.Махмудова, М.С.Агаева**

**Обучение школьников экологическим знаниям и навыкам путем организации экскурсий по биологии**

***Резюме***

В статье говорится о знаниях и умениях, передаваемых учащимся при организации экскурсий при преподавании биологии в общеобразовательных школах. Показано, что экскурсии являются вспомогательной формой обучения, а знания и умения, передаваемые учащимся на уроках, дополнительно расширяются и углубляются. Объясняются значение, основные задачи и принципы внеклассной деятельности. Отмечается особая роль внеклассной деятельности во всестороннем развитии учащихся для общества. Экскурсия является примером внеклассной деятельности, которая чаще используется в обучении. Приведенные в статье методические советы по проведению внеклассной работы по биологии могут помочь учителям в этой области.

***Ключевые слова:*** *обучение, урок, внеклассная деятельность, педагогика, экскурсия, природа, история, музей*

*Rəyçi: ped.f.d., dos., H.Hacıyeva*

*Redaksiyaya daxil olub: 21.08.2024*